**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **MART 2014**
**VERGİ VƏ GÖMRÜK**

## Depozitlərin Faizdən Azad Olunması

Azərbaycanın bank sisteminin gücləndirilməsi və Azərbaycan banklarına depozitlərin qoyulmasını həvəsləndirmək üçün Milli Məclis 1996-cı ildən davamlı olaraq Əhaliyə Banklar və Digər Kredit Təşkilatları Tərəfindən Ödənilən Depozit Faizinin Gəlir Vergisindən Azad Olunması haqqında Qanun (Azad Olunma haqqında Qanun) qəbul edir. Azad Olunma haqqında Qanun banklar və kredit təşkilatları tərəfindən fiziki şəxslərin depozitləri üzrə ödənilən faizləri gəlir vergisindən azad edir. Ən son Azad Olunma haqqında Qanun 1 yanvar 2014-cü ildə qəbul olunmuş və depozitlərdən alınan faizləri növbəti il üçün vergidən azad etmişlər. Bu öz növbəsində banklara yardım edəcək ki, 1 yanvar 2015-ci il tarixinədək nizamnamə kapitallarını 50,000,000AZN-ə çatdırsınlar.

1996-ci ildən 1 yanvar 2010-cu il tarixinədək depozit faizindən əlavə investisiya qiymətli kağızlarından əldə olunan dividentlər gəlir vergisindən azad idi.

Azad Olunma haqqında Qanunlarda istifadə olunan "əhali" sözü Azərbaycan Respublikası vergi orqanları tərəfindən qanunların yalnız Azərbaycan Respublikası vətəndaşlarına tətbiq olunması kimi şərh olunurdu. Qarışıqlıq yaratdığına görə Azad Olunma haqqında Qanunlarda əhali sözü fiziki şəxslər sözü ilə əvəz olundu və bununla da Qanunların tətbiqini təkcə Azərbaycan vətəndaşlarına deyil, həmçinin xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə də şamil etdi.

Azad Olunma haqqında Qanunlarda aydın deyil ki, xarici banklarda olan depozitlərdən əldə edilən faizlər Azərbaycanda gəlir vergisindən azad olunacaq, ya yox. Azad olmanın əsasında duran ideyanın yerli banklar və buna oxşar institutları həvəsləndirmək olduğu üçün iddia etmək olar ki, azad etmə xarici banklardakı depozitlərdən əldə edilən faizlərə şamil olunmur.

## İdxal Rüsumları

Azərbaycan Respublikası Nazirlər Kabineti 21 yanvar 2014-cü il tarixli 16 nömrəli Qərarı ilə Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında 80 nömrəli 12 aprel 2001-ci il tarixli Qərarına dəyişiklik etmişdir. Dəyişikliklərə əsasən, 1 iyun 2014-cü il tarixinədək mühərrik yanacağı idxal rüsumundan azad edilmişdir (azadetmədən əvvəl idxal rüsumunun dərəcəsi 15 faiz idi). Dəyişikliklərin məqsədi əhalinin tələbatını ödəmək üçün mühərrik yanacağının Azərbaycana idxalını stimullaşdırmaqdır.

Bu Qərar 1 iyun 2014-cü il tarixədək qüvvədə olacaq.

## Neft və Əlaqəli Məhsullara Vergiqoyma

Neft məhsullarına aksiz vergisi tətbiq olunur və onun dərəcələri Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Azərbaycanda istehsal olunan neft məhsullarına münasibətdə vergi tutulan əməliyyatın məbləği vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən, o cümlədən, barter əsasında aldığı və ya lamalı olduğu haqqın topdansatış bazar qiymətindən (aksiz və ƏDV çıxmaqla) aşağı olmayan məbləğidir.

6 fevral 2014-cü il tarixdə Nazirlər Kabineti 35 saylı Qərarı ilə 2 dekabr 2013-cü il tarixli Neft Məhsullarına Tətbiq Edilən Aksiz Dərəcələrinin Dəyişdirilməsi haqqında Qərarına dəyişikliklər etmişdir. Dəyişikliklərə əsasən, bəzi neft məhsullarına münasibətdə aksiz vergisinin dərəcələri əhəmiyyətli dərəcədə dəyişmişdir, bəzilərinə münasibətdə isə olduğu kimi qalmışdır.

Aşağıda dəyişikliklərdən əvvəl və sonra tətbiq olunan aksiz vergi dərəcələrinin müqayisəli cədvəli verilmişdir:

| No. | Neft Məhsulları | Aksiz Vergisinin Dərəcəsi (faizlə) (1 yanvar 2014-cü ildən) | Aksiz Vergisinin Dərəcəsi (faizlə) (1 yanvar 2014-cü ilə qədər) |
|---|---|---|---|
| 1 | Avtomobil benzini Aİ-95 | 64.00 | 159.00 |
| 2 | Avtomobil benzini Aİ-92 | 65.00 | 134.00 |
| 3 | Avtomobil benzini Aİ-80 | 66.00 | 134.00 |
| 4 | Dizel yanacağı | 18.00 | 57.00 |
| 5 | Reaktiv mühərrik yanacağı | 9.00 | 68.00 |
| 6 | Nafta (ilkin emal benzini) | 13.00 | 70 |
| 7 | Maye qaz | 22.00 | 69.00 |
| 8 | Mühərrik yanacağı (DT-36) | 24.00 | 170.00 |
| 9 | Mühərrik yanacağı (DT-20) | 31.00 | 160.00 |
| 10 | Soba mazutu | 3.00 | 147.00 |
| 11 | Bitum ( BN-60/90, BNB-60/70) | 11.00 | 180.00 |
| 12 | Bitum (MQO) | 34.00 | 34.00 |
| 13 | Bitum (BNV, BNB- 70/30, BNB-85/25) | 31.00 | 31.00 |
| 14 | Ağ neft (KO-20) | 32.00 | 32.00 |
| 15 | Qaz benzini | 37.00 | 37.00 |
| 16 | Mühərrik yağı (M-12VB, M-14V2) | 52.00 | 52.00 |
| 17 | Sənaye yağları (İ-12A, İ-20V, İ-40A, İ-8B1, İ-30V) | 72.00 | 72.00 |
| 18 | Turbin yağları (T-22, T-30, T-46) | 39.00 | 39.00 |
| 19 | Transformator yağı (T-1500) | 54.00 | 54.00 |
| 20 | Digər yağlar (AK-15, S-11, XM-6, K-12, K-19, VM-4) | 56.00 | 56.00 |
| 21 | Koks (KT-A) | 19.00 | 19.00 |
| 22 | Koks (KT-T) | 19.00 | 19.00 |
| 23 | Koks (KT-Q) | 18.00 | 18.00 |

**Vergi Pozuntuları ilə bağlı Məsuliyyət Məsələləri**

Vergi pozuntuları davamlı olaraq baş verdiyi üçün vergi cinayətləri və pozuntuları üçün Azərbaycan qanunvericiliyində, o cümlədən, Vergi və Cinayət Məcəllələrində nəzərdə tutulmuş məsuliyyət məsələləri hüquqşünasların nəzərini cəlb etməkdə davam edir.

Vergi cinayəti qəsdən törədilmiş ictimai təhlükəli əməldir və dövlətin maliyyə maraqlarına ziyan vurur və cinayət məsuliyyətinə səbəb olur.

Digər tərəfdən Vergi Məcəlləsinə əsasən vergi cinayəti vergi ödəyicisinin, vergi agentinin və digər şəxslərin müvafiq qanunlara əsasən məsuliyyətinə səbəb olan qəsdən törədilmiş əməldir (hərəkət və ya hərəkətsizlik).

Yuxarıdakı anlayışlara əsasən, güman etmək olar ki, vergi cinayətinin və vergi pozuntusunun ilkin əlaməti eynidir. Lakin vergi cinayətinin əsas fərqi onun ictimai təhlükəliliyidir.

Həmçinin, cinayət məsuliyyətinin tətbiqində fərq mövcuddur. Vergi cinayətləri üçün cinayət məsuliyyəti mövcuddur, vergi pozuntuları üçün isə maliyyə sanksiyaları və cərimələr.

Vergi cinayəti ilə vergi pozuntusu arasında əsas fərqlərdən biri odur ki, vergi cinayəti üçün cinayət məsuliyyəti fiziki şəxslərlə məhdudlaşır, lakin vergi pozuntusu üçün məsuliyyət həm fiziki, həm hüquqi

şəxslərə tətbiq olunur.  Vergi Məcəlləsinə əsasən, vergi pozuntusu üçün şirkətə cinayət məsuliyyətinin tətbiqi onun vəzifəli şəxslərinin üzərinə də məsuliyyət qoyulmasını məhdudlaşdırmır.  Burada şirkətin məsuliyyəti onun vəzifəli şəxslərinin məsuliyyətinə əsaslanaraq müəyyən olunur.

Vergi cinayətləri üçün cinayət məsuliyyəti Cinayət Məcəlləsinin 213-cü maddəsində müəyyən olunur.  Bu maddəyə əsasən, xeyli və külli miqdarda vergidən yayınma cinayət məsuliyyətinə səbəb olur.

Vergi cinayətinin predmeti vergilərdir.  Vergi dövlətin və bələdiyyələrin maliyyə əməliyyatlarının təmin etmək üçün vergi ödəyiciləri tərəfindən maliyyə vəsaitlərinin dövlət və yerli büdcəyə ödənilməsi yolu ilə yaranan məcburi, fərdi ödənişdir.

Cinayət Məcəlləsinin müddəalarına əsasən cinayətin obyekti vicdanlılıq prinsipinə söykənən ictimai iqtisadi münasibətlər və hər kəsin dövlət tərəfindən tələb olunan vergilərin ödənilməsi öhdəliyidir.

Bu cinayətin obyektiv tərəfi vergilərin xeyli və ya külli miqdarda ödənilməsindən yayınmaqdır.

Vergidən yayınma şəxs tərəfindən məcburi ödənilməli olan vergilərə münasibətdə hərəkət və ya hərəkətsizlikdir.  Yayınmaya aşağıda qeyd olunanlar daxildir:

(1) Azərbaycan qanunları ilə tələb olunan vergi bəyannamələrini və digər sənədləri Azərbaycan qanunvericiliyi ilə tələb olunan qaydada təqdim etməmək; və

(2) Vergi bəyannaməsinə səhv məlumat daxil etmək.

213-cü maddədə qeyd olunan cinayətin subyektiv tərəfi birbaşa niyyətdir.  Hərəkət və ya hərəkətsizlik şəxs tərəfindən xeyli və ya külli miqdarda vergilərdən yayınmaq məqsədilə edilmişdir.

Öz növbəsində Vergi Məcəlləsində şəxsi sanksiyalardan azad edən müddəalar da mövcuddur.  Belə müddəalara misal olaraq, vergini hesablayarkən şəxsin səhv etməsini və belə səhvi müstəqil şəkildə vergi auditindən əvvəl aradan qaldırmasını göstərmək olar.

Həmçinin yetkinlik yaşına çatmayan şəxslər məsuliyyətə cəlb olunmaqdan azaddırlar.  Vergi Məcəlləsində xüsusi bir yaş həddi müəyyən olunmadığından şəxsin vergi pozuntusunu törətməsi zamanı hüquq qabiliyyətinin həddi nəzərə alınır.

Vergi cinayətinin subyekti 16 yaşına çatmış şəxsdir (Azərbaycan Respublikasının vətəndaşı, xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs).  Belə şəxs vergiləri hesablamağa və ödəməyə və vergi bəyannamələrini və digər sənədləri vergi orqanlarına təqdim etməyə borcludur.

213-cü maddədə nəzərdə tutulmuş cinayət üçün xüsusi məqam onun xeyli miqdarda törədilməsidir.  Xeyli miqdar dedikdə, 2,000-50,000AZN məbləği, külli miqdar dedikdə, 50,000AZN-dən çox olan məbləğ başa düşülür.

Həmçinin qeyd etmək istərdik ki, Cinayət Məcəlləsinə əsasən, 213-cü maddədə nəzərdə tutulmuş vergi cinayətini ilk dəfə törətmiş şəxs vergini tam ödədikdə, cinayət məsuliyyətindən azad olunur.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2014 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.